UOT: 626.8; 631.6

[1]ƏLİYEV S.Ə., [2]MƏMMƏDOVA M.A.

*[1]Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, [2]Bakı Dövlət Universiteti,*
*[1]aliyev_siyah@mail.ru, [2]m.mammadova56@mail.ru*

# SUVARILAN VƏ MELİORASİYA OLUNMUŞ TORPAQLARDA MELİORASİYA VƏ İRRİQASİYA SİSTEMLƏRİNİN İSTİSMARI VƏ QORUYUCU MEŞƏ ZOLAQLARININ SAXLANILMASI SAHƏSİNDƏ DÖVLƏT İDARƏETMƏSİ

Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə zolaqlarının saxlanılması qaydaları "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunlarına və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 02.12.2022-ci il tarixli №664-VIQD Fərmanına əsaslanaraq tərtib olunmuşdur [3, 4].

Meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə zolaqlarının saxlanılması qaydaları sudan istifadənin təşkilini, suvarılan sahələrdə aparılacaq meliorasiya tədbirlərini, meliorasiya və irriqasiya sistemlərinin, onların elementlərinin və qoruyucu meşə zolaqlarının qorunub saxlanılması tələblərini, istismar xidmətinin qarşısında duran məsələləri, istismar və meşə meliorasiya işlərinin tərkibini, ölçülərini və yerinıə yetirilmə vaxtını müəyyən edir.

Qeyd olunan qanunlara meliorasiya və irriqasiya sistemlərinin istismarı ilə bilavasitə məşğul olanlar məsuliyyətlə yanaşmalıdır və bu qaydalara riayət olunması bütün fiziki və hüquqi şəxslər üçün məcburidir. Meliorasiya və irriqasiya sistemlərinin istismarına, işlək vəziyyətdə saxlanılmasına, texniki cəhətdən təkmilləşdirilməsinə [2] və qorunmasına məşğul olan müəssisələr cavabdehdirlər.

Sudan İstifadəedənlər Birliklərinin (SİB) istifadəsinə verilən sistemlər istisna olmaqla,

meliorasiya və irriqasiya sistemlərinə, qoruyucu meşə zolaqlarına və suvarılan torpaqların meliorativ vəziyyətinə texniki nəzarət olunması, onların qorunması, qulluq və texniki xidmətin göstərilməsi, yeni meşə zolaqlarının salınması meliorasiya və su təsərrüfatı istismar müəssisələrinin işçiləri tərəfindən yerinə yetirilir.

Suvarılan və irriqasiya olunmuş torpaqlarda meliorasiya və irriqasiya sistemlərinin istismarının və qoruyucu meşə zolaqlarının saxlanılmasının əsas məqsədi su və torpaq ehtiyatlarından daha səmərəli istifadə edilməsi hesabına suvarılan torpaqlardan yüksək və stabil məhsul əldə edilməsinə nail olmaqdan ibarətdir. Bunun üçün aşağıdakı tədbirlərin görülməsi vacibdir:

– meliorasiya və irriqasiya sistemlərinin bütün elementlərinin işlək vəziyyətdə saxlanılmasını və qorunmasını təmin edən texniki və təşkilatı tədbirlərin keçirilməsi;
– su mənbəyindən tələb olunan həcmdə suyun götürülməsi və onun vaxtında istifadəçiyə çatdırılması;
– sudan istifadə planının tərtibatı və onların icrası, mütərəqqi suvarma üsullarının tətbiq olunması;
– suvarma sistemlərindən su itkilərinin qarşısını ala bilən tədbirlərin görülməsi və mənbədən götürülən suyun səmərəli istifadəsi;
– lil, alaq otları, kol-kos və digər su bitkilərinin suvarma sistemlərindən təmizlənməsi;
– meliorasiya və irriqasiya sistemlərinin təmiri və kənarlarında tarlaqoruyucu meşə zolaqlarının əkilməsi;
– suvarılan torpaqların hidrogeoloji-meliorativ vəziyyətinin müşahidəsi, tədqiqi, şoranlaşması, şorakətləşməsi və bataqlıqlaşmasının nəzarətdə saxlanılması tədbirləri, proqnozların, tövsiyələrin işlənməsi və yerinə yetirilməsinin təşkili, suvarmanın təsirilə qrunt suları səviyyəsinin qalxmasına qarşı drenaj şəbəkəsindən istifadə edilməsi;
– meliorasiya və irriqasiya sistemlərinin istismarına mane olan hallardan: sel və daşqınlardan, subasmalardan, yuyulma və digər hadisələrdən qorunması tədbirlərinin yerinə yetirilməsi;
– sahələr üzrə qabaqcıl təcrübə və elmi-texniki tərəqqinin son nailiyyətlərini tətbiq edərək meliorasiya və irriqasiya sistemlərinin texniki səviyyəsinin təkmilləşdirilməsi məqsədi ilə supaylayıcıların suölçmə vadanlıqları ilə təmin edilməsi və istismar
– səviyyəsinin yüksəldilməsi;
– meliorasiya və irriqasiya sistemlərinin kadastrı, pasportlaşdırılmasının aparılması, təhlükəsizlik bəyənnaməsinin hazırlanması, dövlət reyestrində qeydiyyata alınması;
– su mənbəyindən və suvarma şəbəkələrindən götürülən və istifadəçiyə çatdırılan suların uçotunun aparılması;
– meliorasiya və irriqasiya sistemlərində bərpa, yenidənqurma, istismar-təmir xərclərinin proqnozlaşdırılması;
– xüsusi ixtisas tələb edən sahələr üzrə kadrların peşə hazırlığının və meliorasiya-irriqasiya sistemlərində elmi tədqiqat işlərinin aparılması.

Hidrotexniki qurğular istifadə təyinatından, təhlükəsizlik dərəcəsindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq təsnifata bölünür, həm də, dövlət və yerli əhəmiyyətli qurğular adı altında fərqləndirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.08.2003-cü il tarixli 109 nömrəli qərarı ilə təsdiq edilmiş "Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları"na əsasən dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısı, mühafizə rejimi və təhlükəsizliyi üzrə təsnifatı aparılır [1, 5].

Eyni zamanda, suburaxma qabiliyyətindən asılı olaraq meliorasiya və irriqasiya şəbəkələri dərəcələnir. Birinci dərəcəyə uyğun gələn magistral şəbəkələrdir ki, onların suburaxma qabiliyyəti 10 $m^3$/san-dən çoxdur, bəzən I dərəcəli şəbəkənin suburaxma qabiliyyəti 1-10 $m^3$/san və II dərəcəli şəbəkənin suburaxma qabiliyyəti isə 0,3-1,0 $m^3$/san arasında dəyişir. Nəhayət III dərəcəli şəbəkədə isə suburaxma qabiliyyəti 0,3 $m^3$/san-dən azdır.

Suvarılan və meliorasiya olunmuş torpaqlarda meliorasiya və irriqasiya sistemləri həm dövlət, həm də bələdiyyə mülkiyyətində, qalan hissəsi xüsusi mülkiyyətdə olmaqla, istismar edilir. Dövlət mülkiyyətində olan sis-

temlər Sudan İstifadəedənlər Birliyinin xidmətinə daxil olan ərazilərdə Dövlət Su Ehtiyatları Agentliyinin yerli istismar idarələri tərəfindən "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 20 ildən uzun bir müddətdə Sudan İstifadəedənlər Birliyinin istifadəsinə verilir.

Suvarılan torpaqlardakı meliorasiya və irriqasiya sistemlərinin istismar xərcləri və tarlaqoruyucu meşə zolaqlarının saxlanılması xərcləri dövlət, suvarılan və meliorasiya olunan torpaqların mülkiyyətçiləri və ya istifadəçiləri sayılan bələdiyyələrin, SİB-lərin, habelə fiziki və hüquqi şəxslərin vəsaiti və yaxud suvarma suyunun satışından əldə olunan vəsait hesabına ödənilə bilər. Sistemlərin istismar müddəti isə müvafiq normativlər əsasında qurğuların texniki vəziyyətindən və təbii şəraitdən aslı olaraq təyin olunur [1].

Meliorasiya və irriqasiya sistemlərində cari təmir işləri, tarlaqoruyucu meşə zolaqlarına qulluq hər il həyata keçirilməli, sistemlərin layihə dərinliyinin saxlanılması üçün onlar ən azı üç ildən bir lildən və ot bitkilərindən təmizlənməlidir. Lakin sistemlərdə lillənmə, yamacların uçub dağılması və digər hallar istehsalat prosesləri və kənd təsərrüfatı işlərinin aparılması vaxtı baş verərsə o zaman sistemin ayrı-ayrı hissələrində il ərzində iki dəfə və daha çox təmir-təmizləmə işləri aparıla bilər. Digər tərəfdən suvarma əkinçiliyi inkişaf etdirilən sahələrdə meliorasiya və irriqasiya sistemlərinin istismarı idarələrinin həyata keçirdiyi illik istismar-təmir işlərinin həcmindən, xidmət etdiyi suvarılan torpaqlar və meliorasiya olunmuş sahədən, suvarma və kollektor-drenaj şəbəkələrinin uzunluğundan asılı olaraq idarənin kateqoriyası və strukturu təyin edilir.

İstismar müəssisələri meliorasiya və irriqasiya sistemlərinin istismarının effektivliyini təmin etmək üçün müvafiq nəqliyyat vasitələri, maşın-mexanizmlər və rabitə vasitələri ilə təmin edilirlər.

Yeni qurğuların tikintisi, meliorasiya və irriqasiya sistemlərində nasos stansiyalarının və digər qurğuların tikintisi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28.09.1998-ci il tarixli 197 nömrəli qərarı ilə təsdiq edilmiş "Suların vəziyyətinə təsir edən müəssisələrin, qurğuların və digər obyektlərin tikiləcəyi yerlərin müəyyənləşdirilməsi və onların tikinti layihələrinin razılaşdırılması, onların dövlət ekspertizası və istismara verilmə Qaydaları"-na əsasən yerinə yetirilir. Yeni tikilmiş, əsaslı bərpa olunmuş və ya yenidən qurulmuş meliorasiya və irriqasiya sistemləri və tarla qoruyucu meşə əkinləri "Tikintisi qurtarmış dövlət meliorasiya və irriqasiya sistemlərinin, qoruyucu meşə əkinlərinin istismara qəbul edilməsi Qaydaları"-da göstərilən qaydada istismara qəbul olunur.

Meliorasiya və irriqasiya sistemlərində vaxtaşırı təmir işləri, profilaktik və lazım olan bütün tədbirlərin görülməsi sistemlərin işə yararlılığını, onların normal fəaliyyətini təmin etmək üçün aparılır. Odur ki, sistemlərin fasiləsiz işləməsini təmin etmək istiqamətində aşağıdakı bir sıra tədbirlər yerinə yetirilməlidir:

– sistemin əsas qurğularının – kanalların, kollektorların, su durulducuların lildən, yanlardan uçma, alaq otlarından və digər çöküntülərdən təmizlənməsi;
– kanal üzlüklərinin təmiri, yamacların düzləndirilməsi, dib çöküntülərinin təmizlənməsi hesabına kanalların və kollektorların layihə göstəricilərinə çatdırılması;
– sistemlərə aid qurğu və avadanlıqların, hidrotexniki tikililərin, nasos stansiyalarının, hidrometriya ölçü məntəqələrinin, inzibati və istehsalat binalarının, yolların, rabitə kommunikasiya və digər köməkçi vasitələrin təmiri;
– meliorasiya və irriqasiya sistemlərinin texniki imkanlarının bərpa olunması və yaxşılaşdırılması.

Suvarılan və meliorasiya olunmuş torpaqlarda torpaq mülkiyyətçilərinin və istifadəçilərinin ərazisində onların mülkiyyətinə və istifadəsinə verilmiş torpaqlarda qanunvericiliklə müəyyən edilmiş qaydada kənd təsərrüfatı ehtiyacları üçün artezianlardan, subartezianlardan, bulaqlardan, kəhrizlərdən və digər su mənbələrindən istifadə etmək, bu mənbələr üzərində sututarlar və su təsəttüfatı qurğuları tikmək səlahiyyətləri vardır.

Meliorasiya və irriqasiya sistemlərinin təmiri işlərin həcmi və aparıldığı vaxta əsasən üç istiqamətdə yerinə yetirilir: cari təmir,

əsaslı təmir və qəza təmiri. Mövcud sistemlərin təmiri müvafiq komissiya tərəfindən vegetasiya suvarması başa çatdıqdan sonra müəyyən edilir və ayrılan vəsaitin köçürülməsindən sonra növbəti ildə yerinə yetirilir. Müvafiq komissiya təmirlə əlaqədar böyük hidrotexniki qurğulara ildə iki dəfə olmaqla, payız və yaz fəslində-suvarma mövsümünün əvvəlində və sonunda texniki baxış keçirir [1].

Texniki baxışın nəticələrinə əsasən görüləcək təmir işlərinin tərkibi, zəruriliyi, həcmi və maliyyə xərcləri texniki layihə və smeta sənədlərində göstərilir.

Gözlənilməz hadisə və qəzaların nəticələrinin aradan qaldırılması və ya qarşısının alınması üçün görülən işlər plandan əlavə tədbirlər kimi həyata keçirilir. Qeyd etmək lazımdır ki, təmir işləri başa çatdıqdan sonra qəbul aktı ilə istismara təhvil verilir. Qəbul aktında təmir işlərinin qəbul edilmiş plan əsasında aparılması, işlərin növbəlik əsasında və verilən müddət əsasında görülməsi göstərilir.

Meliorasiya və irriqasiya sistemlərinin təhlükəsizliyinin təmin edilməsi onların mülkiyyətçilərinin və istifadəçilərinin başlıca vəzifələrindəndir. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

– sistemin mülkiyyətçiləri və istifadəçiləri sistemin tikintisi, istismara verilməsi, təmiri, bərpası, istismardan çıxarılması vaxtı təhlükəsizlik norma və qaydalarına riayət olunmasını təmin etməli;
– qanunvericiliyə uyğun olaraq, sistemlərin istismarının, istismarla əlaqədar işçilərin ixtisas dərəcələrinin yüksəldilməsini təmin etməli;
– sistemlərin texniki cəhətdən saz və təhlükəsiz fəaliyyətinin təmin edilməsi, təhlükəsizliyə təsir edən amillərin təhlili;
– sistemlərin təhlükəsiz istismarı, gözlənilməz hadisələrin baş verməməsi və qəzaların vaxtında aradan qaldırılması üçün mal-material ehtiyatlarının saxlanılması.

Meliorasiya və irriqasiya sistemlərinin mülkiyyətçisi və istismarçısı sistemlərin təhlükəsizliyinə mövcud səlahiyyətlər daxilində cavabdehdirlər və baş verə biləcək hadisələri nəzərə almaqla, ilkin tibbi yardım göstərilməsi məqsədi ilə istismar sahələrini və nasos stansiyalarını zəruri tibbi avadanlıqlarla təmin etməlidirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.12.2005-ci il tarixli, 227 nömrəli qərarı ilə təsdiq edilmiş "Telekommunikasiya şəbəkələrini, vasitə və qurğularını mühafizə Qaydaları"-na torpaq qazma işləri aparılarkən riayət olunmalıdır [6].

Meliorasiya və irriqasiya sistemlərinin mülkiyyətçisi və istismarçısı tərəfindən sistemlərin tikintisi və istismarı zamanı, əsaslı təmiri və yenidən qurulmasından sonra hidrotexniki qurğunun təhlükəsizlik bəyənnaməsi tərtib olunur. Təhlükəsizlik bəyənnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.08. 2003-cü il tarixli 102 saylı qərarı ilə təsdiq edilmiş "Hidrotexniki qurğuların təhlükəsizlik bəyənnaməsinin tərtib olunma Qaydaları və forması" əsasında işlənilir. Təhlükəsizlik bəyənnaməsi qurğuların mülkiyyətçiləri və ya istismarçıları tərəfindən hidrotexniki qurğunun təyinatından asılı olaraq imzalanır və müvafiq olaraq aidiyyəti təşkilatlar tərəfindən təsdiq olunur.

Meliorasiya və irriqasiya sistemlərində tarlaqoruyucu meşə zolaqlarının salınması su təsərrüfatı obyektlərindən buxarlanma, su itkiləri, torpaq və su eroziyasına qarşı mübarizə məqsədi ilə həyata keçirilir və əsasən hidrotexniki qurğuların mühafizə zonalarında təşkil olunur. Tarlaqoruyucu meşə əkinlərinin hidrotexniki qurğuların mühafizə zonalarına daxil edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.08. 2003-cü il tarixli 109 saylı qərarı ilə təsdiq edilmiş "Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qydaları"-na əsaslanır [4].

Qoruyucu meşə zolaqlarının salınması işlərinin tərkibinə salınacaq ərazinin seçilməsi, torpaqda ağac tinglərinin əkiləcəyi yerin hazırlanması və ağacların əkilməsi daxildir. Qeyd edək ki, ağac tingləri ildə 2 dəfəerkən yazda və payızda əkilir.

Qoruyucu meşə əkinlərinə qulluq işləri onların suvarılması, becərilməsi, alaq otlarının təmizlənməsi, ziyanvericilərə və xəstəliklərə qarşı mübarizə və yanğından mühafizə tədbirlərinin yerinə yetirilməsindən ibarətdir. Qulluq işlərinin həcmi isə ağacların çətir əmələgətirmə və bundan sonrakı dövr üçün

bir-birindən fərqlənir. Meşə əkinləri kol-kosdan təmizlənir və alaq otlarının biçilməsi işləri yerinə yetirilir. Ziyanverici və xəstəlik törədicilərə qarşı pestisidlərdən istifadə, aqrotexniki qaydalara və suvarma normalarına əməl olunmalıdır.

Qoruyucu meşə zolaqlarının və meşə tingliyi əkilmiş sahələrin suvarılması su obyektlərindən kənd təsərrüfatı ehtiyacları üçün istifadə qaydalarına uyğun yerinə yetirilir.

Ağacların seyrək bitdiyi yerlərdə, sıradan çıxmış ağacların yerində meşə zolaqlarının bərpası işləri görülür. Bərpa işlərinin həcmi və qaydaları meşəquruluşu məlumat materiallarına uyğun aparılır.

Tarlaqoruyucu meşə əkinlərinin qorunması, saxlanılması, istifadəsi və mühafizəsinin kompleks təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.09. 2005-ci il tarixli 173 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması Qaydaları" əsas götürülməklə yerinə yetirilir [7].

## TƏKLİFLƏR

1. Meliorasiya və irriqasiya sistemlərinin istismarı zamanı yeni texnologiyanın tətbiqi, sistemlərin faydalı iş əmsalının yüksəldilməsi, torpaq və su ehtiyatlarının istifadəyə cəlb edilməsi, suya çəkilən xərcin və istismar xərcinin aşağı salınması və digər tədbirlər meliorasiya və irriqasiya sistemləri idarəsinin əsas vəzifələrimdən biri olmalıdır.
2. Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, kənd təsərrüfatı dövriyyəsindən çıxmış torpaqların istifadəyə qaytarılması, irriqasiya sistemlərinin faydalı iş əmsalının artırılması, sistemlərin texniki təminatının yaxşılaşdırılması, sistemdə təmir-bərpa işlərinin aparılması, meliorasiya və irriqasiya sistemlərində modernizasiyanın və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiq edilməsi, meliorasiya və irriqasiya sistemlərinin inkişaf proqramları tərtib olunarkən sistemlərin işlək vəziyyətini təmin etmək məqsədilə proqnozlaşdırılan tədbirlər və gözüləcək işlərin həcmi, aparılma ardıcıllığı
3. və onların əhəmiyyəti nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC. Azərbaycan Respublikasında Meliorasiya və Su Təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, suların istifadəsi, mühafizəsi, idarəedilməsi və nəzarəti sahəsi haqqında normativ hüquqi sənədlər Toplusu I, II, Bakı, 2012.
2. Hacıyev A.İ, Quliyeva S.S. Suvarma sistemlərinin təkmilləşdirilməsində innovasiyalar. Ekologiya və Su Təsərrüfatı Elmi-texniki və İstehsalat jurnalı. Bakı, 2023, № 2, s. 64-67
3. https://e-qanun.az/framework/4170
4. https://e-qanun.az/framework/53184
5. https://e-qanun.az/framework/2262
6. https://e-qanun.az/framework/14559
7. https://e-qanun.az/framework/11337


**UOT: 626.8; 631.6**

**[1]Əiyev S.Ə., [2]Məmmədova M.A.**

*[1]Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, [2]Bakı Dövlət Universiteti,*

*[1]aliyev_siyah@mail.ru,*
*[2]m.mammadova56@mail.ru*

**Suvarilan və meliorasiya olunmuş torpaqlarda meliorasiya və irriqasiya sistemlərinin istismari və qoruyucu meşə zolaqlarinin saxlanilmasi sahəsində dövlət idarəetməsi**

Məqalədə meliorasiya və irriqasiya sahəsində fəaliyyətin - meliorasiya - irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə zolaqlarının saxlanılmasının hüquqi əsaslarını müəyyən edən qaydalar, eyni zamanda, meliorasiya və irriqasiya sahəsində dövlət idarəetməsi əks olunur. Su və torpaq ehtiyatlarından daha səmərəli istifadə edilməsi hesabına suvarılan torpaqlardan yüksək məhsul alınması və meliorasiya-irriqasiya sistemlərinin fasiləsiz işlə-

məsini təmin etmək üçün kompleks tədbirlər təklif edilir, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması və kənd təsərrüfatı dövriyyəsindən çıxmış torpaqların istifadəyə qaytarılmasının, meliorasiya və irriqasiya sistemlərində avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiq edilməsinin əhəmiyyəti diqqətə çatdırılır.

***Açar sözlər:*** *meliorasiya və irriqasiya sistemləri, qoruyucu meşə zolaqlarının saxlanılması, suvarılan torpaqlar, hidrotexniki qurğular, torpaqların mülkiyyətçiləri və istifadəçiləri*

**УДК: 626.8; 631.6**

**[1]Алиев С.А, [2]Мамедова М.А.**

*[1]Государственное Агентство Водных Ресурсов Азербайджана,*
*[2]Бакинский Государственный Университет*

*aliyev_siyah@mail.ru,*
*m.mammadova56@mail.ru*

**Государственное управление в области использования мелиорационных и ирригационных систем и содержания защитных лесополос на орошаемых и мелиорированных землях**

**РЕЗЮМЕ**

В статье отражены правила, определяющие правовые основы деятельности в области мелиорации и ирригации-эксплуатации мелиоративно-ирригационных систем и содержания защитных лесополос, а также государственное управление в области мелиорации и ирригации. Предлагаются комплексные меры по обеспечению высокой урожайности орошаемых земель и бесперебойной работы мелиоративно-ирригационных систем за счет более эффективного использования водных и земельных ресурсов, улучшения водообеспеченности и мелиоративного состояния орошаемых земель и возвращения в пользование выпавших земель сельскохозяйственного оборота, подчеркивается важность применения автоматизированных систем управления в мелиоративных и ирригационных системах.

***Ключевые слова:*** *мелиоративные и ирригационные системы, содержания защитных лесных полос, орошаемые земли, гидротехнические сооружения, собственники и пользователи земель.*

**UDC: 626.8; 631.6**

**[1]Aliyev S.A., [2]Mammadova M.A.**

*[1]Azerbaijan State Water Resources Agency,*
*[2]Baku State University*

*[1]aliyev_siyah@mail.ru,*
*[2]m.mammadova56@mail.ru*

**State administration in the sphere of operation of reclamation and irrigation systems and preservation of protective forest belts on irrigated and reclaimed lands**

**SUMMARY**

The article deals with the rules determining the legal basis of work in the field of reclamation and irrigation – operation of reclamation and irrigation systems and preservation of protective forest belts, as well as state administration in the field of reclamation and irrigation. Comprehensive measures are proposed to ensure high yields from irrigated lands and continuous operation of reclamation and irrigation systems through more efficient use of water and land resources and the importance of improving the water supply and reclamation of irrigated lands and the return to use of lands out of agriculture, the use of automated management systems in reclamation and irrigation systems is brought to attention in the article.

***Key words:*** *reclamation and irrigation systems, preservation of protective forest belts, irrigated lands, hydrotechnical facilities, owners and users of lands.*

*Məqaləyə ADSEA-nın Tabeliyində Su və Meliorasiya İnstitutunun"Hidrogeologiya" şöbəsinin müdiri, g.-m.ü.f.d., dosent Ç.C. Gülməmmədov rəy vermişdir.*